Həqiqətən Allahın sizə buyurduğu vacib əməlləri sevdiyi kimi, rüxsətlə (yüngülləşdirici) buyurduğu əməlləri də etmənizi sevir

İbn Abbasdan (Allah ondan və atasından razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Həqiqətən Allahın sizə buyurduğu vacib əməlləri sevdiyi kimi, rüxsətlə (yüngülləşdirici) buyurduğu əməlləri də etmənizi sevir".

[Səhih] [İbnu Hibbən rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, həqiqətən Allah əhkam və ibadətlərdəki buyurduğu yüngüllükləri, səfər zamanı namazı qısaltmaq və cəm etmək kimi mükəlləflərə asanlaşdırdığı rüxsətlərin edilməsini sevir. Eyni şəkildə Uca Allah, əmrlərinin də yerinə yetirilməsini sevir, çünki Onun rüxsətlərdə və fərzlərdəki əmrləri eynidir.

http://sunnah.global/hadeeth/az/show/65017